**Azərbaycan Respublikasında balıqçılıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 722 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Balıqçılıq ~~əhəmiyyətli~~ su obyektlərinə zərərli təsirin yol verilən normaları", "*balıq və digər su bioresurslarından* istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və *balıq və digər su bioresurslarının qeyri-qanuni ovuna* cərimələr", "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasında *balıq və digər su bioresurslarından* istifadə haqqı və qaydaları" təsdiq edilsin (əlavə olunur).[1]

2. "Azərbaycan Respublikası balıqçılıq təsərrüfatı sututarlarında qiymətli balıq növlərinin, su heyvanlarının və onurğasızların ehtiyatlarının mühafizəsini gücləndirmək tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 mart tarixli 128 nömrəli qərarının birinci və ikinci bəndləri qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 6 sentyabr 1999-cu il
№ 146

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1999-cu il 6 sentyabr tarixli 146 nömrəli qərarı
ilə
TƏSDİQ EDİLMİŞDİR

**Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasında *balıq və digər su bioresurslarından* istifadə haqqı və qaydaları**

1. Xarici dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan Respublikasının su obyektlərində "Balıqçılıq haqqında" Qanunla yanaşı, Azərbaycan Respublikası ilə Xəzəryanı dövlətlər arasında bağlanmış *beynəlxalq* müqavilələr~~, sazişlər, razılaşmalar~~ və digər beynəlxalq hüquq normaları əsasında *balıq və digər su bioresurslarından* istifadə hüququ əldə edə bilərlər.

2. Azərbaycan Respublikasının balıqçılıq ~~əhəmiyyətli~~ su obyektlərində "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, xarici dövlətlərin hüquqi və fiziki şəxslərinə *balıq və digər su bioresurslarının sənaye ovu* üçün vətəgə sahələri (müqavilə ilə sərhədləri bilinən), ov rayonları və limitlər *(kvotalar)* müvafiq icra hakimiyyəti orqanları tərəfindən ayrılır.

Vətəgə sahələrinin ayrılması haqqında müqavilədə ovlanan balığın həcmi (limiti, *kvotası*), növləri və ölçüləri, balıq ovlamaq üçün qadağan olunan ov alətləri, texniki vasitələr, digər qaydalar və şərtlər müəyyən edilir.

3. Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin balıq *və digər su bioresurslarının sənaye ovu* ödənişlidir və istifadə hüququ Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada əldə edilir.

4. *Balıq və digər su bioresurslarından* istifadəyə görə ödəmələrin məbləği (dəyəri) *balıq və digər su bioresurslarının* növündən, onların ovu üsulundan, ov alətlərinin və texniki vasitələrin növündən, habelə su obyektinin təyinatından asılı olaraq differensiallaşdırılır və bazar konyukturasına uyğun aşağıdakı qaydada müəyyən edilir:

| **Balıq ehtiyatlarının növləri** | **Balıq ehtiyatlarından istifadənin əmsalları** |
|---|---|
| a) Kilkə | 1,0 |
| b) Kefal | 2,0 |
| c) Siyənək | 2,5 |
| ç) Axçalı balıqlar: | |
| Sıf | 4,0 |
| Külmə | 2,0 |
| Çapaq | 2,0 |
| Çəki | 3,0 |
| Xəşəm | 5,0 |
| Kütüm | 5,0 |
| Şamayı | 5,0 |
| Axçalı balıqların digər növləri | 2,0 |
| d) Suiti | 1,0 |
| e) Xərçəngkimilər | 5,0 |

5. Balıq ehtiyatlarından ümumi istifadəyə görə ödəniş haqqı aşağıdakı düsturla təyin edilir:

$$Q=L^* K^* N$$

Q — manatla

L — bir ton balıqdan *(kilkə balığının xammalı nəzərdə tutulur)* və ya bir ədəd suitindən istifadənin bazis qiyməti. Bazis qiyməti balıqların və suitinin bazar satış qiymətinin 10%-ni təşkil edir.[18]

K — *balıq və digər su bioresurslarının* növündən asılı olan əmsal.

N — ovlanması nəzərdə tutulan vətəgə obyektinin ümumi miqdarı (limiti, *kvotası*), ölçü vahidi balıqlar üçün — tonla, suiti üçün isə ədədlə götürülür.

6. Ayrıca istifadədə, icarədə, bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan su obyektlərində *balıq və digər su bioresurslarıdan* istifadəyə görə ödəmələr bələdiyyələr, mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən müəyyən edilir.

7. Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının su obyektlərində *balıq və digər su bioresurslarından* istifadə hüququ və vəzifələri "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə yanaşı Respublikanın digər qanunvericilik aktları və beynəlxalq hüquq normaları ilə müəyyən edilir.